Seyran Səxavət

# QAPILARIN O ÜZÜNDƏ QALAN DÜNYA

POVEST

qanun nəşriyyatı

**Seyran Səxavət. QAPILARIN O ÜZÜNDƏ QALAN DÜNYA**
Bakı, Qanun Nəşriyyatı, 2023, 120 səh

Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 27.09.2023

Naşir: Şahbaz Xuduoğlu
Redaktor: Əyyar Tahir
Korrektor: Elsevər Muradov
Texniki redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Sevil Rafail
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-821-3

© Seyran Səxavət, 2023
© Qanun nəşriyyatı, 2023

“Qapıların o üzündə qalan dünya” – Qapıların o üzündəki dünya, həmişə qapıların bu üzündəki dünyadan daha maraqlı, gözəl və saf olub. Bəşəriyyət qapılarının o üzündən qapıların bu  üzünə yol gələ-gələ hər şeyini itirə-itirə gedir… bir gün əliboş qalıb Allaha əl açacaq, ehtiyatlı olun.

## QAPILARIN O ÜZÜNDƏ QALAN DÜNYA

Gülalı "Bakı" mehmanxanasından çıxan kimi rast gəldiyi birinci adamdan soruşdu:

– Qardaş, qardaş, çimməyə nə təhər gedillər?

Gülalının birbaşa müraciət etməyi qoluna qəşəng qadın girmiş kişinin xoşuna gəlmədi, ona cavab vermədi. Gülalı da onun dalınca baxıb başını buladı. Dayanıb gözlədi, ürəyinə yatan bir adam görən kimi soruşdu:

– Qardaş, qardaş, çimməyə nə təhər gedillər?

– Hamama?

Gülalı bir an çaşdı. – Yoox ee, çimməyə, çimməyə, suda...

– Hə... plyaja?

– Hə, hə, qardaş.

Gülalı üç gün idi Bakıya gəlmişdi ki, uşaqlarına bazarlıq eləsin. Dağdan gəlmiş adamın avqustun axırlarında şəhərin istisində nəfəsi təngiyirdi. Onun əlli yaşı vardı, ömründə ikinci dəfə idi ki, Bakıya gəlirdi – birinci dəfə onu Bakıya qaynı gətirmişdi, onda Gülalının otuz yaşı vardı.

Dəniz kənarı ilə soraqlaya-soraqlaya gəlib “Azneft” meydanına çıxdı, ordan da avtobusa minib dondurma yeyə-yeyə getdi “Şıx” çimərliyinə. Adamları görəndə gözləri qaraldı, istədi hündür bir yerə çıxıb onları saysın, gördü ki, mümkün deyil. Elə bil başqa bir dünyaya düşmüşdü, imkanı olsaydı, çimərlikdəki adamların hamısını bircə-bircə nəzərdən keçirərdi...

Arvadı Alagöz yadına düşdü: “Alagözü gətirəsən ee, buralara. Deyəsən, gör dünyanı, yazıq, qoyun-keçidən başqa nə görmüsən?...”

Çimərlikdə Gülalının burnuna xoş qoxu gəldi. “Yəqin hamısı ətir vurub gəlib ee, əndamınız yansın”. Gülalı ömründə bu libasda, özü də bir belə qadına rast gəlməmişdi. O, heç iyirmi il bir yastığa baş qoyduğu arvadını da belə görkəmdə görməmişdi və Gülalı uymuşdu. Gülalıya elə gəlirdi ki, onlar “çılpaq” idi. “Beş-on gündən sonra pambıq başlayır, yığıb-tökəsən bunları bizim kolxozun düzlərinə, planımız üççə günə dolar... Pah atonnan, adama bax ee, elə bil qarışqadı”.

Gülalı ömründə bir belə adamı bir yerdə görməmişdi, “Burda yeddi para kəndin adamı var. Pah atonnan...”

Gülalı gördü ki, elə soyunan özünü dənizə vurur. “Görəsən, burda da çimmək pulunandı?...” Bir az gözlədi, ətrafa baxdı, gedib yaxınlıqdakı kioskdan su içəndə su satandan soruşdu:

– Pulu kim yığır?

Gülalının aləmində “doxtur” kimi geyinmiş enli-sifət adam soruşdu:

– Nə pulunu?

Gülalı çimərliyə yüzüncü dəfə gələn adam kimi dedi:

– Necə yəni nə pulunu? – Dənizi göstərdi, – çimmək pulunu... kim yığır?

Su satan oğlan bu qəribə adama maraqla baxıb gülümsədi, onu bir az da yaxına çağırdı:

– Day-day, mən ölüm, hardan gəlmisən?

– Kənddən.

– Kolxoz sədrinə oxşayırsan...

– Yox, qoyuna gedirəm.

– Özünə bir yaxşı iş tapa bilmirdin?

Gülalı başdan-ayağa oğlanı süzüb dedi:

– Sən hardan gəlmisən?

– Şəhərdən.

– Nəçisən?

– Su satıram, görmürsən...

Gülalı azacıq yaxına gəlib dedi:

– Kələ kimi oğlansan, özünə bir kişi sənəti tapa bilmirsən?

Gülalı ondan aralandı. Oğlan istədi ona cavab qaytarsın, düzü, ehtiyat elədi. “Salar məni yumruğunun altına, öküz kimidi”. Gülalı xeyli aralanandan sonra su satan oğlan əlindəki əsgi ilə stolun üstünü silib dedi: “Çuşka!”

Sonra da özündən razı-razı çığırmağa başladı: – Ay sərin su... ay sərin suu...

Gülalı bir ağacın dibini təmizlədi, sonra da paltarını soyunub üstünə yekə bir taxta parçası qoydu ki, külək aparmasın. Onun bədəni qapqara tüklə örtülsə də, ağappaq idi. Bu çimərlikdə Gülalı kimi ağ bədəni olan yox idi, elə bil zalım oğlu yumurta soyutması idi. Bu çimərlikdə heç Gülalı kimi sağlam adam da çətin tapılardı, zalımı çıxmış elə bil buz baltasıdı.

Başqa kişilərin əynindəki çimərlik kostyumlarına baxıb pərt olmuşdu, onunku dizinə qədər düşürdü və ha baxırdı özününkünə oxşarını görmürdü ki, görmürdü. Onun əynindəki alt paltarını arvadı güllü parçadan tikmişdi. Necə deyərlər, üstündə gül gülü, bülbül də bülbülü çağırırdı.

O, suya girmədən iki saata qədər yay günəşinin altında o tərəf bu tərəfə gərdiş elədi, eşitmişdi ki, günəş şüası xeyirdi. Sonra da başqaları kimi üzüqoylu uzandı qumun üstünə. İndi Gülalının yumurta soyutması kimi ağappaq bədənini elə bil bayram yumurtası kimi qıpqırmızı boyamışdılar.

Gülalı gördü ki, başı hərlənir. Durub dənizə tərəf getdi. Dizinə qədər suya girdi, istədi durduğu yerdə otursun, utandı. Onun yanından keçən kök bir qadın "peryod" deyib əli ilə dənizin ortasını göstərdi və özü

də göstərdiyi tərəfə getdi. Gülalı iki addım atıb yenə dayandı, sağ tərəfinə baxdı, sonra nəzərlərini qabağa zillədi. Cavan və qəşəng bir qız hava ilə doldurulmuş çimərlik döşəyinin üstünə uzanmışdı, özü də kitab oxuyurdu. Gülalının ürəyindən keçdi ki, kaş Alagöz də burda olaydı (aydın məsələdi ki, Alagöz paltarlı olaydı), o qəşəng qızı itələyib suya salandan sonra Alagözə deyəydi:

– Uzan, ay yazıx, uzan, qoy dünyanın yorğunluğu canından çıxsın.

Gülalı suda xeyli atılıb-düşdü. Bayaqkı kök qadın sahilə çıxırdı və onun böyründən ötəndə ona baxıb gülə-gülə dedi:

– Trus!

Gülalı alt paltarına baxdı: "Tursiyimə lağ eləyir... Elə, elə, düşəsən bir yiyəsiz dərədə Gülalının əlinə... Gülalı səni başa salar... başa salar ki, mən qonağam, özü də lağ olunası qonaq deyiləm... hə..."

İndi su Gülalının xirtdəyinə çıxmışdı, elə bil süd gölünə düşmüşdü. Su göz yaşı kimi həm dumduru idi, həm də duzlu. "Yaşayanda da Bakı kimi yerdə olasan, qoyunları ötürəsən üzü belə, özün də gələsən bu cənnətə. Yoxsa bizim kimi, insan cildindən də çıxmışıq. Yazıq Alagöz..." İndi Alagözün sifəti çimərlikdəki yüzlərlə qadın sifətinin arasında Gülalının yadından çıxmışdı. "Noolsun ee, yemək-içməkdən korluğumuz

yoxdu, yəni biz də allahın altında gün görürük?...” Gülalı ömründə ilk dəfə idi ki, belə fikirləşirdi və bu cür fikirləşdiyi yerdə ayağının altında qum quzuladı, “ay” deyib suyun dibinə getdi. Suyun üzünə qalxan kimi bağırdı:

– Ay camaat, öldüm ooy!!! – Elə bağırdı ki, elə bil suda Gülalının qollarını bururdular.

Onun ağzına su doldu, suyun dibinə getdi, çabaladı, suyun üzünə çıxdı:

– Ay camaat!!! – bağırdı, elə bağırdı ki, elə bil barmağı qapı arasında qalmışdı.

Bu vəziyyət bir neçə dəfə təkrar oldu. Bayaqdan bəri fikirləşdikləri onun yadından çıxdı, indi Gülalı canıynan əlləşirdi... İndi bir anlığa Alagözün sifəti onun yadına düşdü, sonra da Gülalı Alagözün surəti ilə bərabər huşunu itirdi...

***

Gülalı arxası üstə qumun üstünə uzandığı yerdə dərisinin sızıldadığını hiss elədi, günəş onu bərk yandırmışdı. Gözünü açanda gördü ki, başına çoxlu adam toplaşıb. Hamıdan əvvəl bayaq dənizdə irəlini göstərib ona “peryod” deyən kök qadın gözlərinə sataşdı. “Sənin zibilinə düşdüm ee, avara donuz qızı...” Başını qaldırıb qalxmaq istəyəndə kimsə dedi:

– Uzan, uzan, a kişi!

Təzədən uzandı və səs gələn tərəfə baxanda başının üstündə özü kimi yekəpər, cantaraq, sarıyanız bir adam gördü. Gülalıya "Uzan, uzan, a kişi!" deyən səsi yenə eşitdi:

– Nə yığışmısınız? Duyte otsuda!

Hamı dağılışdı. Kök qadın da getdi və bir az aralanandan sonra dayanıb dənizə tamaşa eləməyə başladı.

– A kişi, qalx! – Bayaqkı səs üçüncü dəfə eşidildi.

Gülalı qalxdı, gün xeyli əyilmişdi. Onun üzündə anlaşılmaz ifadə vardı, ötüb keçənlərə də fikir vermirdi, elə bil qırx ildi çimərliyə gedib-gəlirdi. Gülalı hələ əməlli-başlı özündə deyildi və hər şey ona yuxu kimi gəlirdi.

– A kişi, üzə bilirsən?

Gülalı onunla üzbəüz dayanan adamı elə bil indi görürdü:

– Nə bilim? Heç bilmirəm ki, üzmək bilirəm, yoxsa yox?...

Gülalı ona diqqətlə tamaşa elədi. "Görəsən, bu kimdi belə..."

– Qardaş, qardaş, – Gülalı özünə gəlmişdi, – məni tanıyırsan?

– Səni? Hardan, birinci dəfədi görürəm...

– Bəs burda niyə durmusan?

Gülalı ilə söhbət eləyən adam qurşaqdan yuxarı çox nəhəng görünürdü, ayaqları bədəninə nisbətən balaca idi, qıçları da gödək. Xırda gözləri vardı, bur-

nu da yumrutəhər sifətində əməlli-başlı nəzərə çarpırdı. O, əlini əlinə çırpdı, sağ əli ilə sol ovcunu ovub üfürəndən sonra dedi:

– A kişi, ölmüşdün ee... – Sonra hırıldadı, xırda gözləri itdi, qəfildən də yerə çökdü və Gülalıya da dedi ki, otur.

– A kişi, hardan gəlmisən?

– İrayonnan...

– Ölmüşdün ha...

Elə bil Gülalı indi ayıldı:

– Bəs məni sudan kim çıxartdı, matros?

– Burda matros neynir, a kişi?

– Bəs məni sudan kim çıxartdı?

O, ovcundakı qumu atıb ayaqlarını uzatdıqdan sonra dedi:

– Səni sudan çıxardan adam çıxıb getdi...

– Nə?!

– Getdi... getdi...

Gülalı tez ayağa durub ağacın dibinə yüyürdü ki, paltarını geyinib o adamın dalınca getsin. Ağacın yanına çatanda dayandı, yavaş-yavaş geri qayıdıb həmsöhbətinin yanına gəldi. Peşmançılıqla dedi:

– Gərək elə ölüb qaleydim o suyun içində, ilan-qurbağa məni yeyəydi...

Yekəpər adam təəccübləndi:

– Niyə, a kişi, allahına şükür elə ki, salamat qalmısan.

– Salamat qalmağına qalmışam, ancaq o kişi maa o boyda yaxşılıq eləyib... Bəri bax, qardaş, qardaş, sən onu tanımırsan?

Yekəpər adamın üzü o yana idi və eşitməzliyə vurdu.

– Qardaş, qardaş, adın nədi?

– Fatik...

– Nə?!

– Fatik...

Gülalı ürəyində bəlkə on-on beş dəfə təkrar etdi: Fatik... Fa-tik. Fa-tik...

– Fatik?... – Gülalı inamla dedi.

– Hə, Fatik.

– Bu nətəhər addı?

– Bəs sənin adın nədi?

– Mənim adım... – Öz adını deməkdən elə bil ki, utandı... – Mənim adım Gülalıdı... – və elə bildi ki, onun da adı həmsöhbəti üçün çətin, yaddaqalan adlardandı, bir də təkrar elədi: – Gülalı. Gülalı.

– Gülalı?

– Hə...

Tanış oldular. Gülalı başladı tanışlığı genişləndirməyə:

– Nəçisən?

– Mən?

– Bəs kim?